**NAİLƏ SƏMƏDOVA**
**Filologiya elmləri doktoru**
**Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu**

# MƏMMƏD SƏİD ORDUBADİ "AZƏRBAYCAN TARİXİ" HAQQINDA

**Açar sözlər:** Ordubadi, Azərbaycan, tarixçi, Babək, Şah İsmayıl.
**Key words:** Ordubadi, Azerbaijan, historian, Babak, Shah Ismail.
**Ключевые слова:** Ордубади, Азербайджан, историк, Бабек, Шах Исмаил.

Böyük ədibimiz Məmməd Səid Ordubadi tarixi romanlar müəllifi olmaqla yanaşı Azərbaycan tarixinə aid yazılan kitablara dəyərli rəylər bildirən tarixçi alim olmuşdur. Azərbaycan tarixinin bütün dövrlərini mükəmməl bilən Ordubadi tariximiz haqqında yazılan kitabların özəlliklərini göstərmiş, eyni zamanda öz fikir və mülahizələrini irəli sürmüşdür.

Bu baxımdan Azərbaycan Elmlər Akademiyası nəşriyyatı tərəfindən 1941-ci ildə dərc edilmiş 210 səhifəlik "Azərbaycan tarixi" kitabı haqqında məqalə diqqət çəkir. 13 vərəqdən ibarət olan məqalə ərəb əlifbası ilə avtoqrafdır. Üzərində düzəlişlər edilsə də səliqəli xətlə qələmə alınmışdır. Müəllif bildirir ki, əsərin müqəddiməsi oxucuya kitabın bir tarixi əsər kimi dolğun ola biləcəyi haqqında böyük ümidlər verir. Lakin əsər oxunduğu zaman məxəzlərdən lazımınca istifadə edilmədiyi aşkara çıxır.

Ordubadinin fikrincə, tarixdə baş verən hadisələri nəql etmək kifayət deyildir. Bu olayların siyasi və ictimai qiymətini təyin etməklə bərabər onları yaradan amilləri də aydınlaşdırmaq vacib cəhətlərdən biridir. Məqalə müəllifi yazır: "... hadisələrin düzgün və etibarlı olub-olmamasını yoxlamaq yaxud da onların tarixi bir əhəmiyyəti olub-olmamasını aydınlaşdırmaq və habelə onların bir xalqın və bir qəbilənin varlığını göstərə biləcək qədər dəyərli olduğunu təyin etmək yalnız mütaliə və tarixi əsərləri bir-biri ilə müqayisə etməkdən asılı deyildir. Burada hər şeydən əvvəl bir tarix aliminin və bir etnoqrafiya mütəxəssisinin mühakimə və müşahidə qüdrəti də böyük rol oynamalıdır." (1, s.2).Ərəb tarixçiləri İbn Xəldun, Əbül-Fəda, İbn əl-Əsir, eləcə də Herodot və Strabonun nəzəriyyələrini təhlil edən Ordubadi onların fikirlərinə tənqidi yanaşmış, əsərlərini əfsanə və əsatirdən təmizləyə bilmədiklərini, xüsusən, əsərlərinin Şərq xalqlarının tarixinə aid hissələrində oxucuları inandırmayacaq qədər əfsanə və əsatirə meydan verdiklərini göstərmişdir.Nizami Gəncəvinin Firdovsi haqqında "bir tarixçi hər eşitdiyini tarixi əsərə dərc etməməlidir" fikrini nümunə kimi göstərən Ordubadi bu fikrin, eyni zamanda, hər eşitdiklərini öz əsərlərində canlandıran Herodot və

Strabona da aid olduğunu qeyd edir. Tarixçi istifadə etdiyi məxəzlərə tənqidi nöqteyi-nəzərdən yanaşmalı, tarixin müxtəlif dövrlərində baş verən olayların ən mükəmməlini və ən dolğununu əldə etdikdən sonra onu oxuculara təqdim etməlidir.

Ordubadi sözügedən kitabda tarixin coğrafiya ilə əlaqədar olduğunun nəzərdən qaçırıldığını, Azərbaycanın keçmişi haqqında verilən məlumatın Şərqin qədim tarixindən köçürüldüyü üçün olduqca maraqsız və mündəricə etibarı ilə çox ibtidai şəkildə verildiyi haqqında fikirlər yürüdür. Araşdırıcı bu qüsurların aradan qaldırılması üçün maraqlı mülahizələr irəli sürür. Bunlardan birinə nəzər yetirək.

Ordubadi yazır: "Əsərdə azərbaycanlıların Midiya nəslini davam etdirmək məsələsini isbat üçün uzun-uzadı fikirlər atılmışdırsa, yenə də bu fikri tamamlaya bilməmişlər. Bu fikri tamamlamaq üçün midiyalılara məxsus bəzi adət və ənənələrin bu günə qədər Azərbaycan xalqı içərisində qaldığını göstərmək lazım idi. Halbuki yunan tarixçiləri midiyalıların qalın qurşaq bağladıqlarını, əllərini və saqqallarını rənglədiklərini bir neçə yerdə təkrar eləmişlər. Əcəba, həman adətlər yaxın zamanlara qədər Azərbaycanda davam etmirdimi?! Əcəba, dünya ordularına ən dəyərli atlar verən midiyalılar bu atları harada bəsləyirdi?! O atlar bugünkü Qarabağ atlarının babaları deyildimi?!" (1, s.7). Əsərdə siyasi və mədəniyyət məsələlərinin təsvirinə diqqət verilməməsini nəzərə çatdıran Ordubadi Babək üsyanının düzgün qoyulmaması və onun qismən təhrif edilməsinə öz araşdırmasında daha çox yer ayırır. Ordubadi bu üsyanın necə yaranması, inkişafı, mövzusu və mündəricəsi haqqında fikirlərini bildirir. Babəkin qüdrətli və məharətli bir sərkərdə olmaqla bərabər bir alim və mütəfəkkir, Babək hərəkatının isə özünəməxsus elmi və ictimai mövzusu olduğunu qeyd edən Ordubadi onun meydana qoyduğu fikrin o zaman İslam Şərqində yaşayan tərəqqipərvər şəxsiyyətlərin düşündüyü və təqdir etdiyi yeganə fikir olduğunu göstərir. "Babək hərəkatı dini görüşləri bütünlüklə rədd etmirdi və edə də bilməzdi. Bu hərəkatın başlıca qayəsi xalqın siyasi azadlıq qazanması idi." (2, s.148).

Məmməd Səid Ordubadi "Azərbaycan tarixi" kitabında Babəkin vətəni haqqında həqiqətə uyğun variantlardan istifadə edilmədiyini, Babək üsyanının məğlubiyyətindən sonra Azərbaycanda xəlifəyə qarşı başlanan üsyandan danışılmadığını bildirir və bu məsələlərə də aydınlıq gətirir.

Məlumdur ki, "Azərbaycan Atabəyləri dövlətinin hakimiyyət dövrü mədəni həyatın yüksəlməsi ilə səciyyələnir. Bu zaman dünya mədəniyyətinə görkəmli dahilər bəxş etmiş Azərbaycan poetik məktəbi yaranır və ən yüksək çiçəklənmə dövrünə çatır." (3, s.248.) Ordubadinin haqqında bəhs etdiyi "Azərbaycan tarixi" kitabında bu dövrün mədəni həyatı haqqında ötəri məlumat verilmişdir. Halbuki Səlcuqilər dövründən bəhs edildiyi zaman "Sultan Səncər və sonra da Qızıl Arslan dövləti zamanında Azərbaycanda

yaradılan mədəni hərəkata qiymət vermək lazım idi. Çünki Azərbaycanın altun dövrü bu hökmdarların zamanından başlanmışdır. Şübhəsiz ki, bu həqiqəti söyləmək üçün bir neçə şairin adını çəkmək kifayət deyildi." (1, s.13). "Azərbaycan tarixi" kitabında Səfəvilər dövrü haqqında daha əhatəli məlumat verilmişdir. Şah İsmayıl dövlətin paytaxtını Təbrizdə yerləşdirmişdi. O, "Təbrizi ədəbiyyat, kitab işi, miniatür-boya sənətinin dayağına çevirməklə bütün milli mədəniyyətimizin yüksəlməsi üçün yol" (4, s.402) açmışdı.Şah İsmayıl dövrünə görə böyük bir dövlət adamı idi. Onun hakimiyyəti dövrünə aid olan sənədlərdə Osmanlı - İran müharibələri və sünni-şiə məsələsi diqqəti çəkən məsələlərdən olmuşdu. Naməlum müəllif tərəfindən yazılmış "Tarixi-aləmarayi-Şah İsmayıl" əsərindəki məlumatlar Şah İsmayılın "döyüşçü, sərkərdə, dövlət xadimi və şair kimi yüksək keyfiyyətlərini üzə çıxarmağa kömək edir. Onun ... olduqca qısa bir müddət ərzində hətta ən qüdrətli hökmdarları belə vahiməyə salan nəhəng və uzunömürlü bir imperiya təsis etməsi dünya tarixində rast gəlinən nadir hadisələrdəndir." (5, s.370). Məhz Şah İsmayılın öz dövrünə görə böyük bir dövlət adamı olduğunun qeyd edilməməsi sözügedən kitabın çatışmayan cəhətlərindən biridir. "Xüsusən, əsərdə Şah Abbas dövründən danışılan hissədə onun Azərbaycan xalqına etdiyi xəyanətləri ayrıca qeyd edilməli idi. Çünki Şah İsmayılın İranı Azərbaycan dövləti ətrafında birləşdirmək istədiyinin əleyhinə olaraq Şah Abbas paytaxtı Təbrizdən İsfahana köçürməklə iranlılaşdı və Azərbaycanı İran müstəmləkəsi halına gətirdi." (1, s.12). "Azərbaycan tarixi" kitabında elmi təhlilin yoxluğu, tarixçi alimlərin əsərlərindən lazımınca istifadə edilməməsi, hadisələrə tənqidi nöqteyi-nəzərdən yanaşılmaması və onların silsilə təşkil etməməsi, Ordubadiyə görə, əsərin əsas nöqsanlarındandır.

Bununla belə, Məmməd Səid Ordubadi "Azərbaycan tarixi" əsərinin Sasanilər dövrünə aid olan hissəsinin əhəmiyyətli olduğunu qeyd edir, məişət və mədəniyyətdən danışılmasa da, Azərbaycan xalqının milli varlığının lazımınca təsvir edildiyini göstərir.

Bütün bu söylənilənlər 1941-ci ildə nəşr olunan "Azərbaycan tarixi" kitabını təhlil etmək məqsədini daşımır. O dövrdən indiyə qədər tariximiz haqqında alimlərin tədqiqat əsərləri, monoqrafiyalar nəşr olunmuşdur. Məqsəd görkəmli yazıçımız Məmməd Səid Ordubadinin yalnız Azərbaycan ədəbiyyatında tarixi roman janrının əsasını qoyan və bu yanrda əsərlər yaradan müəllif kimi deyil, tariximiz haqqında yazılan əsərləri qiymətləndirən və bu əsərlərə rəy bildirən bir tarixşünas olmasını nəzərə çatdırmaqdır.

Ordubadinin AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutundakı şəxsi arxivində saxlanılan tarixə aid məqalələri bu fikri bir daha təsdiqləyir.

Gələcək tədqiqatlarda yazıçının tarixə aid məqalələri nəzərdən keçirilib daha əhatəli araşdırılacaqdır.

Haqqında danışdığımız məqalə, fikrimizcə, indi də öz aktuallığını saxlamaqdadır. Bununla belə, Məmməd Səid Ordubadinin yürütdüyü fikirlərin elmiliyi haqqında tarixçi alimlər daha dolğun məlumat verə bilərlər.

## Ədəbiyyat

1. Ordubadi M.S. Azərbaycan tarixi. AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu. Fond 14, sax.vah. 384.
2. Azərbaycan tarixi. Uzaq keçmişdən 1870-ci ilə qədər. Bakı, Çıraq, 2009.
3. Bünyadov Z. Azərbaycan Atabəyləri dövləti (1136-1225-ci illər). Bakı, Şərq-Qərb, 2007.
4. Əliyarlı S. Tariximiz açılmamış mövzuları ilə. Bakı, Mütərcim, 2012.
5. Musalı N. I Şah İsmayılın hakimiyyəti ("Tarixi-aləmarayi-Şah İsmayıl" əsəri əsasında). Bakı: Elm və təhsil, 2011.

**N.Samadova**

## Mammad Said ordubadi about "History of Azerbaijan"
## Summary

Besides being an author of historical novels, Mammad Said Ordubadi was a historian who gave valuable reviews on books written about the history of Azerbaijan. Ordubadi, who knew all periods of the history of Azerbaijan comprehensively, reflected the peculiarities of historical books, in the meantime had put forward his ideas and considerations.

In this regard, an article written by Mammad Said Ordubadi about 210 pages book "History of Azerbaijan" which was published by the publishing house of the Academy of Sciences of Azerbaijan in 1941, draws attention. Ordubadi evaluates the information given in the book "The History of Azerbaijan" regarding the rebellion of Babak, State of Atabeys, Shah Ismail, and he disagrees on the truthfulness of several events. According to Ordubadi, the absence of scientific analysis, the lack of critical approach to the events, and the meager use of the historians' work and are the main drawbacks of the work.

From the 40s of the last century to the present day valuable research works and monographs about the history of Azerbaijan were published. The purpose of the article we are introducing is not analyzing the book "History

of Azerbaijan" published in 1941. The aim is to emphasize that Mammad Said Ordubadi was an outstanding writer who founded the historical novel genre in Azerbaijani literature and was the author of works in this genre: moreover, besides creating works in this genre, he was also a historian reviewing works written about our history.

**Н.Самедова**

**Мамед Саид ордубади об «Истории Азербайджана»**

**Резюме**

Мамед Саид Ордубади был не только автором исторических романов, а также ученым историком, который отзывался о книгах, написанных про историю Азербайджана. Ордубади, прекрасно осведомленный обо всех периодах истории Азербайджана, подчеркивал особенности книг по нашей истории и в то же время выдвигал свои идеи и версии.

В связи с этим привлекает внимание статья Мамед Саида Ордубади о 210-и страничной книге «История Азербайджана», изданной в 1941 году издательством Академии Наук Азербайджана. Ордубади, рассматривая в книге «История Азербайджана» сведения о восстании Бабека, государстве Атабеков, Шахе Исмаиле указывал, что описание многих исторических событий не соответствуют действительности. По мнению Ордубади, отсутствие научного анализа в книге, не правильного использования трудов ученых историков и критического подхода к событиям являются основными недостатками этой работы.

С 40-х годов прошлого столетия до наших дней были изданы много исследовательских трудов и монографий по истории Азербайджана, достойных внимания. В данной статье мы не ставили перед собой целью анализировать книгу «История Азербайджана», изданного в 1941 году. Наша основная цель состоит в том, чтобы довести до общественности тот факт, что выдающийся писатель Мамед Саид Ордубади был не только основателем жанра исторического романа в азербайджанской литературе и автором многих сочинений в этом жанре, но и историком, который выражая свое мнение про разные труды написанные о нашей истории, оценивал их.

**Rəyçi: Kamandar Şərifov**
**Filologiya elmlər doktoru, dosent**